Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 64 (1192) 6 aprel - 7 aprel 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# ŞAMAXI: HARDAN BAŞLANIR VƏTƏN?

(əvvəli ötən saylarımızda)

**Bu münasibətlə martın 4-də Azərbaycan Xalça Muzeyində təqdimat mərasimi keçirilmiş, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev tərəfindən Şamaxı rayonuna kubok təqdim olunmuşdur. Bu təqdimatın davamı olaraq may ayının 14-də Şamaxının "Azərbaycanın Ədəbiyyat Paytaxtı" elan olunması ilə əlaqədar rayonda təntənəli təqdimat mərasimi keçirilmişdir.**

Ötən il rayonun Heydər Əliyev parkında və Dənizkənarı Milli Parkda Azərbaycanın qeyri-maddi mədəni irsinin ən parlaq nümunəsi olan Novruza həsr olunmuş bayram şənliklərində qədim Şamaxını təmsil edən xalq sənətkarları, kulinarlar, mətbəx ustaları, fermerlər, "Şirvan" folklor ansamblı layiqli şəkildə çıxış etmişlər.

2015-ci ilin may ayında Böyük Vətən müharibəsində alman faşizmi üzərində tarixi Qələbənin 70 illiyi rayonda da geniş qeyd edilmişdir. Keçirilmiş tədbirdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təltif olunmuş rayon veteranlarına "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi" yubiley medallarını təqdim edilmişdir.

Böyük mütəfəkkir Mirzə Ələkbər Sabirin anadan olmasının 153-cü ildönümü Şamaxıda böyük təntənə ilə qeyd olunmuşdur.

Hesabat ilində rayonda Mədəniyyət və Turizm Nazirliyinin "Paytaxtdan bölgələrə" adlı Azərbaycan mədəniyyəti və incəsənətinin bütün sahələrini əhatə edən layihəsi çərçivəsində "Milli İncəsənət Muzeyinin kolleksiyasından Azərbaycanın ədəbiyyat korifeyləri" adlı sərgisi təşkil edilmişdir.

> **"İqtisadi müstəqillik bizim üçün böyük imkanlar açır. Biz iqtisadi müstəqilliyimizi düşünülmüş siyasətlə, aparılan islahatlarla, investisiya siyasətimizlə və regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə təmin etmişik. Əminəm ki, növbəti illərdə bütün şəhər və rayonlarımızda işlər daha da sürətlə gedəcək. Çünki artıq çox möhkəm baza var. İnfrastruktur layihələrinin böyük əksəriyyəti icra edilir. Növbəti illərdə biz sənayenin, kənd təsərrüfatının inkişafı ilə daha çox məşğul olacağıq".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Kitabxana işi hər bir xalqın, eləcə ümumi mədəniyyətimizin ayrılmaz tərkib hissəsi, mədəni inkişafın əsas komponentlərindən biridir. Kitabxanalar rayonun mədəni ictimai həyatında əsas yerlərdən birini tutur. Hesabat ilində rayon Mərkəzi Kitabxanasına 1378 nüsxə latın qrafikalı ədəbiyyat o cümlədən 173 elektron nəşr daxil olmuşdur.

2015-ci ildə mədəniyyət müəssisələrinin maddi texniki bazasının gücləndirilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür. Mədəniyyət Mərkəzində, Mərkəzi Kitabxanada, Şirvan kənd Folklor klubunda və kənd kitabxana filialında, Nüydi kənd Diyarşünaslıq klubunda və kənd kitabxana filialında həmçinin Məlikçobanlı kənd kitabxana filialında təmir işləri aparılmış və 23 mədəniyyət müəssisəsi inventar avadanlıqlarla təchiz olunmuşdur.

Rayonda 71 tarixi mədəniyyət abidəsi mövcuddur. Onlardan 1-i dünya, 23-ü ölkə, 47-si isə yerli əhəmiyyətli abidələrdir. Rayonumuzun ərazisində mövcud olan tarix və mədəniyyət abidələrinin mühafizəsi, istifadəsi və bərpası daim diqqət mərkəzində saxlanılmışdır.

Hesabat ilində Dünya Bankının Şimal-Qərb dəhlizi üzrə regional inkişaf və turizm potensialının inkişaf etdirilməsi layihəsinin identifikasiyası ilə əlaqədar 2015-2020-ci illər üçün rayonda görülməsi nəzərdə tutulmuş turizm inkişaf layihəsi hazırlanaraq Mədəniyyət və Turizm Nazirliyinə təqdim olunmuşdur.

Turizm sənayesi artıq dünyada ən gəlirli və perspektivli sahəyə çevrilmişdir. Rayonun Pirqulu zonasında müasir standartlara cavab verəcək yeni turizm obyektləri tikilir. Hazırda rayonda 986 yerləşmə yeri olan 24 mehmanxana və mehmanxana tipli obyekt qeydə alınmışdır. Təsadüfi deyildir ki, son illərdə rayona gələn turistlərin sayı sürətlə artmaqdadır. Belə ki, 2015-ci ildə Şamaxıya gələn turistlərin sayı 90420 nəfər olmuşdur ki, bu da ötən illə müqayisədə 5170 nəfər çoxdur. Turistlərdən 22402 nəfəri isə xarici turistlərdən ibarət olmuşdur.





### *Gənclər və idman*

Bəşəriyyəti birləşdirən əsas dəyərlərdən biri kimi idman sağlam düşüncəli gələcək nəslin formalaşmasında mühüm rol oynayan amildir. Yola saldığımız 2015-ci il ümumilikdə ölkəmizdə gənclər və idman sahəsində də əlamətdar bir il kimi yadda qalmışdır. 50 ölkənin iştirakı ilə ölkəmizdə keçirilən ilk Avropa Oyunlarında 20 idman növü üzrə 6000-dən çox idmançı iştirak etmişdir. Bu yarışlarda ölkəmiz 21 qızıl, 15 gümüş və 20 bürünc medal olmaqla, cəmi 56 medal qazanaraq ümumi komanda hesabında Avropa Oyunlarının ikincisi olmuş və bir daha öz qüdrətini və idmana olan qayğısını dünyaya sübut etmişdir. Avropa Oyunlarına başlamamışdan öncə Bakıda qədim od məbədi olan Atəşgahda alovlandırılan məşəl Azərbaycanın bütün bölgələrini gəzdiyi kimi rayonumuzda da böyük izdihamın sevinci ilə alovlandırılmışdır.

Azərbaycan tarixdə ilk belə tədbirə ev sahibliyi etməklə dünya ictimaiyyəti qarşısındakı mövqeyini daha da möhkəmləndirdi, müstəqil və güclü bir ölkə olduğunu sübut etdi. Şamaxı rayon Gənclər və İdman İdarəsi "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın tələblərini rəhbər tutaraq 2015-ci il üçün geniş tədbirlər planı hazırlamış, istər gənclər, istərsə də, bədən tərbiyəsi və idman sahələrində bir çox işlər görmüşdür. Belə ki, elm, təhsil, mədəniyyət sahəsində istedadlı gənclərin aşkar edilməsi və onlarla fərdi işin qurulması üçün müxtəlif müsabiqə, intellektual oyunlar, festivallar, olimpiadalar keçirilmişdir. Dövlət Proqramının icrası istiqamətində rayonda gənclər evinin inşa olunması məqsədilə rayonun mərkəzində müvafiq ərazi ayrılmış, ilkin layihə sənədləri təsdiq edilmişdir.

Bundan əlavə hesabat ilində Ölkə başçısının tapşırığına uyğun olaraq idmanın kütləviliyinin artırılması, uşaq, yeniyetmə və gənclərin fiziki sağlamlıqlarının möhkəmləndirilməsi istiqamətində müvafiq tədbirlər görülmüş, Olimpiya İdman Kompleksindən, Uşaq Gənclər İdman məktəbindən səmərəli istifadə olunmuşdur. Gənclərin vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsi sahəsində orta məktəb şagirdləri arasında "Cəsurlar" və "Şahin" hərbi-idman oyunları təşkil olunmuşdur. Keçirilən hər iki hərbi-idman oyunlarına rayonun ümumtəhsil orta məktəbləri üzrə 308 nəfər şagird iştirak etmişdir. Ötən il ərzində respublika və beynəlxalq yarışlarda da rayon idmançıları yaxından iştirak etmiş və yüksək nəticələr əldə etmişlər.

**2015-ci ildə rayonda təbiətin mühafizəsi və ekologiyanın qorunması sahəsində xeyli işlər görülmüşdür. "İDEA" İctimai Birliyinin təşəbbüsü ilə hesabat ilində "Ümumrespublika Yaşıllaşdırma" marafonu çərçivəsində həyata keçirilmiş ağacəkmə və yaşıllaşdırma işlərinin genişləndirilməsi kampaniyasında müxtəlif növdə 19740 ağac əkilmişdir. Bundan əlavə rayonun idarə və müəssisələrinin iştirakı ilə kütləvi iməciliklər keçirilmiş, geniş yaşıllaşdırma tədbirləri icra olunmuşdur. Bu istiqamətlərdə tədbirlər müntəzəmliklə davam etməkdədir.**

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ